**Ölməzliyə qovuşanlar**

# Vətən uğrunda, qələbə naminə...

**Adını Yadigar qoymuşdular. O, dünyaya göz açmamış atası Səfxan avtomobil qəzasında həlak olmuşdu.**



1994-cü il iyunun 4-də Goranboy rayonunun Qaradağlı kəndində dünyaya gələn Yadigar Səfxan oğlu Əliyev ata qübarı ilə böyüdü. Amma üzünü görmədiyi atasının yeganə yadigarı olan Yadigarı yaxın qohumları sevgidən, nəvazişdən məhrum etmədilər. Ona atasının yoxluğunu hiss etdirməməyə çalışdılar. Buna baxmayaraq, Yadigar ata həsrətini hər zaman qəlbində daşıdı, ata məhəbbətinə, ata qayğısına mənəvi ehtiyac duydu.

Evin tək övladı olan Yadigar zəkalı, çalışqan, qoçaq, cəsarətli idi. Oxuduğu məktəbdə müəllimləri də, şagird yoldaşları da onu çox sevirdilər. Yadigar dərslərində əlaçı idi.

O, uşaqlıqdan idmana meyil göstərir, yunan-Roma güləşi ilə məşğul olurdu. Müxtəlif yarışlarda iştirak edən Yadigar Əliyev 2010-2011-ci illərdə yeniyetmələr arasında yunan-Roma güləşi üzrə Azərbaycan çempionatında 2-ci, 3-cu yerləri tutmuşdu.

Yadigar hərbi xidmətə 2012-ci ildə Lənkəran şəhəri "N" saylı hərbi hissədə başladı. Əsgəri xidmətdə olarkən də idmanla məşğul olurdu. Kiçik çavuş Y.Əliyev Mülki Müdafiə Qoşunları arasında keçirilən sərbəst güləş üzrə yarışlarda 1-ci və 2-ci yerləri tutdu. Fəxri fərman və medallarla təltif olundu. Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının sərbəst güləş üzrə birinciliyində yüksək səviyyədə hakimlik etdiyinə görə diplomla təltif edildi. 2014-cü ilin yanvar ayında hərbi xidmətdən tərxis olundu.

2020-ci ildə Yadigar Əliyev müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi yenidən ordu sıralarına döndü. Həmin ilin yanvarında Naxçıvan Muxtar Respublikası "N" saylı hərbi hissəsində kurs keçdi. Nümunəvi xidmət edir, hərbçi peşəsinin sirlərinə bələd olur, komandirlərinin verdiyi tapşırıqları məsuliyyətlə, dəqiqliklə yerinə yetirirdi. 2020-ci ilin aprelində təlimlərdə yüksək səviyyədə iştirak etdiyinə görə çavuş rütbəsi alan və medalla təltif olunan Yadigar Naxçıvan Muxtar Respublikasının Xüsusi Təyinatlılarının baş kəşfiyyatçısı təyin edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərinin 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalması bütün vətənsevər, mərd, igid oğullarımız kimi, Yadigarın da qüruruna toxunurdu. Odur ki, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycan Ordusunun çavuşu Yadigar Əliyev könüllü olaraq Naxçıvandan gəlib döyüşlərə qatıldı, ölkəmizin ərazi bütövlüyünün bərpası naminə rəşadətlə vuruşdu. Qubadlı və Şuşa şəhərləri uğrunda döyüşdü, əlbəyaxa döyüşlərdə iştirak edərək düşmənin xeyli sayda canlı qüvvəsini məhv etdi.

Yadigar 2020-ci il oktyabrın 30-da yaralı əsgərini xilas edərkən düşmənin atdığı snayper gülləsi nəticəsində şəhid oldu. Qəhrəman hərbçimiz doğulduğu Qaradağlı kəndində dəfn edildi. Xüsusi Təyinatlı Qüvvələrin çavuşu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olundu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 11 iyun, № 122.- S.11.